Lenin adına Azərbaycan Dövlət Darülfünununun on illiyi tamam oldu, Azərbaycanın paytaxtı olan BakışəhərindəŞərq ilə Qərbin arasında bir elm və maarif avanpostu, bir sosializm quruluşu ocağı, bir bilgi mənbəyi dikəldi.

Bu on ilin müddətində darülfünun böyüyür, artır, möhkəmlənir vəŞura məmləkətinin ehtiyaclarına yaxınlaşaraq onlarıödəməyə, mühitlə sıx əlaqə bağlamağa və sosializm quruluşunun ümumi işlərində iştirak etməyəçalışır.

Darülfünunun 10 illiyi bütün Şura kulturasının bayramı olmaqla bərabər, yerli Azərbaycan bayramı olaraq da hesab edilməlidir.

Cəmiyyəti yenidən qurmaq işində mühüm bir amil olaraq öz vəzifəsini ifa etməklə bərabər Darülfünunu türkləşərək, türk dilində ali bir məktəb olmaq yolunda günü-gündən irəliləməkdə, necə deyərlər, çiçəklənməkdədir.

Darülfünun kibi müəssisənin həyatında 10 illik müddət o qədər də uzun müddət deyildir.

Lakin həyatımızda müşahidə edilən sürətli tempi və darülfünunumuzun həyat və inkişafını içərisinə alan böyük sosializm quruluşunu nəzərə aldıqda darülfünunun bu 10 illik tarxi xüsusi bir təqdirəşayan olduğu görünər. Geriyə dönüb darülfünunun keçmiş olduğu yollarına baxdıqda və eyni zamanda da irəlidəki vəzifələrinə nəzər yetirdikdə onun işlərinin keyfiyyət və kəmiyyətcə artıb yaxşılaşmasını məmnuniyyətləqeyd etməliyiz.

Darülfünunun maddi bazası nə qədər böyüyüb, möhkəmləndiyini anlamaq üçün onun bu on ildən bəri büdcə məsarifini nəzərdən keçirmək kifayət edər. Bu büdcə 1919-1920-ci tədris ilində müharibədən əvvəlki valyuta hesabı ilə 60.000 manat olduğu halda, 1928-1929-cu il tədris ilində artıq büdcə 1 milyon manatdır. 1929-1930-cu ildə darülfünunumuz işçi fakültəmizə 2 milyon manat buraxacaqdır.

1919-1920-ci tədris ilində darülfünunun bütün akademik heyəti on nəfər professor olmaqla, 40 nəfərdən çox deyildi. Halbu ki, indi 52 professor olmaqla, 300-ə yaxın elmi işçimiz vardır.

1919-1920-ci tədris ilindəüç tibb fakültəsi kursuna və bir tarix və bir filologiya kursuna malik olduğu halda, darülfünunun indi tibb fakültəsindən 5 kursa, pedaqojidən 5 kursa, hüquqdan 2 kursa, Şərq fakültəsindən 1 kursa malikdir. Bunu da deyim ki, 1919-1920-ci tədris ilindəsadəcə 2 fakültə vardır, lakin, 1928-1929-cu tədris ilində darülfünun 5 fakültəyə malikdir ki, həmçinin yeni sosialist diplomatların yetişdirilməsi üçün indi hüquq fakültəsi dəəklənmişdir.

Bu on ilin müddətində darülfünun praktiki fəaliyyət üçün 1500 nəfərə yaxın mütəxəssis təbib və pedaqoqlar hazırlanmışdır ki, bunlardan 250 nəfərdən çoxu türk kişiləri və 40-a yaxını isə türk qadınıdır.

Darülfünunda aparılan elmi və tədqiqat işləri ildən-ilə artırılıb dərinləşməkdədir. 1919-1920-ci tədris ilində fəaliyyəti yalnız tədris işlərindən ibarət olurdu. 1920-ci ildə elmi assosasiyaların yaradılması elmin inkişafına böyük bir təkan verdi.

1921-ci ilin yanvarında birinci dəfə olaraq alimlər cəmiyyəti təşkil edilir və bunun dalınca bir çox yeni təşkilatlar da qurulur. Bu tədris ilindən etibarən elmi nəşriyyat işinə də başlayacağıq. “Darülfünun ixbarı” adlı ilk kitabımız nəşrə başlayır və eyni ildə işçilər kadrosu hazırlamaq işinə keçilir.

Bundan sonra da əhəmiyyətcə daha böyük olan vəzifələr meydana qoyulur ki, bunların arasında darülfünunu türkləşdirməkdə var. Bizim vəzifəmiz leninizm və türkləşmək ideyalarıyla hərəkət etmək, fakültələrin məqsədini bilavasitə həyata keçirmək, siyasi tərbiyə işləri aparmaqdan başqa bir şey deyildir.

Bu vəzifələrdən hər birinin həyata keçməsi yolunda müəyyən nailiyyətlər əldə edilmişdir. İsbat üçün pedaqoji və şərq fakültələrinin tədrisinin türkçə olduğu, tələbələr sırasında türkçü qisminin artdığını, onların yaşayışşəraitinin yaxşılaşmış olduğunu, istehsal təcrübəsinin həyata keçirildiyini və s. bildirmək kifayət edər.

Bu sahələrdəki müvəffəqiyyətimizin nə dərəcədə böyük olduğunu rəqəmlərin inandırıcı dili gözəlcəsinə göstərmək.5262 6811□u 0 □□2□□2.7783

Kredo 2020.- 18 iyun.- S.12.